# Laçın şəhərində artıq 1555 sakin yaşayır

**Şanlı Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsinin ardından işğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdışın təmin olunması ölkəmizin əsas prioritetlərindəndir.**





Qısa müddət keçməsinə baxmayaraq, bu torpaqlarımızda müasir infrastruktur qurulur, "ağıllı kənd və şəhərlər" salınır, hava limanları tikilir, tarixi, dini və mədəni abidələrin bərpası həyata keçirilir. Məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə reallaşır.

Dövlətimizin mühüm hədəflərindən biri olan keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması mərhələli şəkildə həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Dekabrın 28-də daha 80 nəfər uzun illərdir həsrətini çəkdikləri yudlarına qovuşub. Bu mərhələdə 25 ailə Laçın şəhərinə köçürülüb. Şəhərdə artıq 1555 sakin yaşayır.

## Laçınlılar Yeni ili yurdlarında qeyd edəcəklər

El-obalarına dönən keçmiş məcburi köçkünlərin sevinclərinin həddi-hüdudu yoxdur. Təəssüratlarını bölüşən laçınlılar daim dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Keçmiş məcburi köçkün Fuad Ağalarbəyli bildirir ki, Laçından 16 yaşında didərgin salınıb. İndi isə 31 il sonra doğma yurduna qayıtmağın sevincini yaşayır.

Yeni ili öz doğma obasında qeyd edəcəyi üçün sevincinin hədsiz olduğunu söyləyir Laçın sakini Seyidkazım Cabbarov. O deyir: "Laçına nə vaxtsa qayıdacağıma həmişə ümid etmişəm. Ümidlərim doğruldu. Növbəti ilin də ölkəmizə düşərli olacağına inanıram".

Dədə-baba yurduna qayıtmağın xoşbəxtliyini yaşayan Kifayət İsmayılqızı söyləyir ki, ilk olaraq qohumlarının, əzizlərinin məzarlarını ziyarət edəcək. Uzun illərdir bu günün həsrəti ilə yaşayan keçmiş məcburi köçkün Laçın şəhərinin yenidən inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib.

## 4691 nəfər elinə, obasına qovuşub

Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən Böyük qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən dövlət proqramının əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizdə yeni infrasrukturun qurulması, evlərin tikilməsi, o cümlədən yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində aparılan sürətli işlər onu deməyə əsas verir ki, 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın yurdlarına qovuşması uğurla davam etdiriləcək.

Proqram çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönüblər. Artıq 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 380 ailə (1392 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1186 ailə - 4691 nəfər elinə, obasına qovuşub.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*



Azərbaycan.- 2023.- 29 dekabr (№ 286).- S.9.